# Naxçıvan xanlığının iki bayrağı tapıldı



Milli Azərbaycan Tarixi Muzeyi Azərbaycanın Naxçıvan xanlığına məxsus olmuş iki bayrağını aşkarlayıb.

Muzeydən Trend-ə verilən məlumata görə, Milli Azərbaycan Tarixi Muzeyinin əməkdaşı, bayraqşünaslıq üzrə ixtisaslaşmış ilk yeni nəsil Azərbaycan tarixçisi, tarix üzrə fəlsəfə doktoru Pərvin Gözəlov Rusiyanın Sankt-Peterburq şəhərində elmi ezamiyyətdə olarkən bayraq fondlarında Azərbaycanın Naxçıvan xanlığına məxsus olmuş iki bayrağı aşkar edib.

Naxçıvana aid uzun zaman ərzində yalnız 1827-ci ildə Türkmənçay müqaviləsindən sonra naxçıvanlılardan ibarət "Gəngərli süvari dəstəsi"nin fəxri və döyüş bayrağı, həmçinin "Naxçıvan bəy drujinası"nın döyüş bayrağı mövcud idi. Həmin bayraqlar rus-türk



müharibəsi ərəfəsində azərbaycanlılardan ibarət atlı müsəlman alaylarına təqdim olunub. Kəngərli süvari dəstəsinin döyüş və fəxri bayraqlarının üzərində Rusiyanın dövlət gerbi, ikibaşlı qartalın təsviri var. Naxçıvan bəy drujinasının döyüş bayrağının üz tərəfində yuxarıda qeyd olunan ikibaşlı qartal təsvir olunur, arxa tərəfində isə aypara rəmzi əks olunur. Bu günə kimi yalnız sözü gedən bayraqlar Naxçıvana aid tarixi bayraqlar kimi təqdim edilirdi.

Sankt-Peterburq şəhərində Dövlət Ermitajı Muzeyinin bayraq fondunda və arxivində Pərvin Gözəlov tərəfindən aparılmış elmi tədqiqat nəticəsində üzə çıxarılan Naxçıvan xanlığının birinci bayrağı 1812-ci ildə Aslandüz döyüşündə general-mayor Petr Kotlerevskiy tərəfindən qənimət kimi götürülüb. Dövlət Ermitaj Muzeyinin arxiv sənədlərində qeyd olunan bayraq "1912-1913-1914-ci il döyüşlərinin qənimətləri" kimi göstərilir.

Yeni aşkar edilmiş Naxçıvan xanlığının bayrağı dördkünc formada olaraq, uzunluğu 145 sm. eni 159 sm-dir. Moruğu rəngli bayrağın yuxarı sağ tərəfində yerləşən mavi rəngli lövhəcikdə "Bismillah", bayrağın sol tərəfində Qurani-Kərimdən 48-ci əl-Fəth surəsinin bir hissəsi yazılıb: "Həqiqətən, biz sənə açıq-aydın qələbə verdik". Bayrağın aşağı hissəsində Qurani-Kərimdən 2-ci əl-Bəqərə surəsinin bir hissəsi yazılıb. Sağda ərəb qrafikası ilə "Ey rəbbimiz bizə səbr ver, bizi sabit et", sol tərəfdə isə "Kafirə və qövməyə qarşı bizə kömək et" yazıları vardır. Bayrağın orta hissəsində açıq sarı rəngli romb parça tikilib, üzərində sarı rəngdə şir və günəş, şiri-xurşid rəmzi təsvir edilib.

Pərvin Gözəlovun elmi araşdırmaları nəticəsində aşkar etdiyi





Naxçıvanın ikinci dövlət bayrağı 1827-ci ildə xanlığın işğalı zaman general İ.Paskeviç tərəfindən qənimət kimi götürülmüşdür və bu günə qədər müxtəlif xarici muzeylərin fondlarında "XVIII-XIX əsr müsəlman bayrağı" kimi saxlanılır. Aşkar olunmuş Naxçıvan xanlığının bayrağı dördkünc formada eni 144 sm, uzunluğu 178 sm-dir. Qızılı ipəkdən hazırlanmış bayraq bir-birinə üfüqi şəkildə tikilmiş üç parçadan ibarətdir. Bayrağın iki hissəsi bir ölçüdə, biri isə nisbətən ensizdir. Bütün bayraqlarda olduğu kimi, bu bayraqda da sağ tərəfdən bayraq torbacığı tikilib. Bayrağın üzərində ərəb qrafikası ilə Qurani-Kərimdən 48-ci əl-Fəth ayəsinin bir hissəsi və dini şüarlarla yanaşı 6 (altı) səkkizguşəli ulduz və nəbati elementlər əks edilir. Üst zolağın üzərində ərəb qrafikası ilə Qurani-Kərimdən 48-ci əl-Fəth surəsinin bir hissəsi "Allahdan kömək qələbə yaxındır, Məhəmməddən möminlərə müjdə" yazısı qızılı saplarla bayrağın üzərinə həkk edilib. Zolağın sol tərəfində digər xanlıq bayraqlarında əks olunmuş zanbaq gülü burada da parçadan tikilib. Sağ tərəfdə biri digərinin içərisində aralarında dairəvi sədd olan iki səkkizguşəli ulduz qızılı saplarla bayraqda yerləşdirilib. Qeyd etmək lazımdır ki, əks edilmiş ulduz Möminə Xatun türbəsinin üzərindəki ulduzların üslubunda tərtib edilib. Buradakı ulduzların daxilində həndəsi elementlər açıq-aşkar görünür. Nəinki Azərbaycan xanlıqlarının bayraqlarının üzərində, XVIII-XIX əsr Şərq dövlətləri bayraqlarında da buna oxşar elementə rast gəlinməyib. Orta zolaqda açıq qızılı parçadan iki tiyəli tutacağı əjdaha başı ilə yekunlaşan Həzrəti Əlinin qılıncı (şəmşir) təsvir olunub.